**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının İnsan Resursları və Sosial İnkişaf Nazirliyi arasında əmək sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu**

Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının İnsan Resursları və Sosial İnkişaf Nazirliyi:

dostluq və əməkdaşlıq əlaqələrini gücləndirməyi arzu edərək;

əmək sahəsində problemlərin həlli amillərindən biri kimi beynəlxalq əməkdaşlığın vacibliyini qəbul edərək;

Tərəflərin əmək sahəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişafına marağını nəzərə alaraq;

əmək sahəsində ikitərəfli əlaqələrin inkişafı istiqamətində birgə səylərin dəstəklənməsinin vacibliyini vurğulayaraq;

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər milli qanunvericiliklərinə, Azərbaycan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının tərəf olduğu beynəlxalq müqavilələrə və bu Anlaşma Memorandumuna uyğun olaraq əmək sahəsində əməkdaşlığını gücləndirir və inkişaf etdirirlər.

**Maddə 2**

Tərəflər öz səlahiyyətləri çərçivəsində və qarşılıqlı maraq əsasında aşağıdakı sahələrdə əməkdaşlıq edirlər:

1. əmək mübahisələrinin həlli;
2. əməyin təftişi, əməyin mühafizəsi və gigiyenası;
3. işsiz şəxslərin, iş axtaranların, qadınların, gənclərin və əlilliyi olan şəxslərin məşğulluq imkanlarının artırılmasına yönəlmiş əmək bazarı siyasətlərinin hazırlanması;
4. milli peşə standartlarının hazırlanması və milli kvalifikasiyaların təkmilləşdirilməsi;
5. Tərəflərin razılaşdırdığı hər hansı digər sahə.

**Maddə 3**

Tərəflər milli qanunvericiliklərinə uyğun olaraq bu Anlaşma Memorandumunun 2-ci maddəsində göstərilən sahələrdə aşağıdakı formalarda əməkdaşlığı həyata keçirirlər:

a) müvafiq qanunvericilik və normativ sənədlərin, analitik materialların və tədqiqat fəaliyyətinin nəticələrinin mübadiləsi;

b) təcrübə və məlumat mübadiləsi;

c) Tərəflərin ekspertləri arasında məsləhətləşmələr;

d) mütəxəssislərin kvalifikasiyalarını artırmaq məqsədilə potensialın artırılması və təlim səfərlərinin təşkili;

e) beynəlxalq forumlarda qarşılıqlı maraq doğuran məsələlərdə ortaq mövqelərin razılaşdırılması;

f) əməkdaşlığın qarşılıqlı razılaşdırılmış istənilən digər formaları.

**Maddə 4**

Hər iki ölkədə tətbiq olunan istənilən yerli tənzimləmə və qaydalar nəzərə alınmaqla bu Anlaşma Memorandumunun icrası üçün zəruri olan maliyyələşmə Tərəflərin müvafiq il üçün ayırdıqları büdcə təsisatlarından həyata keçirilir.

Bu Anlaşma Memorandumu çərçivəsində nümayəndə heyəti və mütəxəssislərin səfər xərcləri göndərən Tərəfin hesabına və müvafiq milli qanunvericiliyin müddəalarına uyğun olaraq ödənilir.

**Maddə 5**

Bu Anlaşma Memorandumunun icrasının əlaqələndirilməsi və onun icrasına nəzarət üzrə Tərəflərin cavabdeh qurumları aşağıdakılardır:

a) Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən - Beynəlxalq əlaqələr şöbəsi;

b) Səudiyyə Ərəbistanı Krallığının İnsan Resursları və Sosial İnkişaf Nazirliyi tərəfindən - Beynəlxalq məsələlər üzrə müşavirlik.

**Maddə 6**

Tərəflər bu Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq fəaliyyətinə cəlb olunan işçilərinin girişi, qalması və gedişi üçün lazımi dəstək vəköməyi təmin edirlər. Bu tipli müraciətlər qəbul edən Tərəfin dövlətinin qanun və qaydaları ilə tənzimlənir. İşçilər onlara tapşırılmış vəzifələrdən başqa heç bir fəaliyyətlə məşğul ola bilməzlər.

**Maddə 7**

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılığı Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə dostcasına həll edilir.

**Maddə 8**

Tərəflərin qarşılıqlı yazılı razılığı ilə bu Anlaşma Memorandumuna dəyişikliklər edilə bilər. Belə dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar formasında rəsmiləşdirilir və bu Anlaşma Memorandumunun 9-cu maddəsinə uyğun olaraq qüvvəyə minir.

**Maddə 9**

1. Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan Tərəflərin müvafiq dövlətdaxili prosedurlarının yerinə yetirilməsini təsdiq edən diplomatik kanallar vasitəsilə bir-birinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

2. Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə bağlanılır. Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, bu Anlaşma Memorandumu avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

3. Bu Anlaşma Memorandumunun müddəaları Tərəflərin dövlətlərinin tərəf olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə təsir etmir.

4. Tərəflər başqa cür razılaşmadıqda, bu Anlaşma Memorandumunun ləğvi ona uyğun olaraq həyata keçirilən layihə və proqramlara dair onun müddəalarının etibarlılığına təsir göstərmir.

Bu Anlaşma Memorandumu Bakı və Ər-Riyad şəhərlərində 13/07/2021-ci il tarixində, müvafiq olaraq hicri təqvimi ilə 3/12/1442-ci il tarixində Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsiri zamanı fikir ayrılıqları yarandığı təqdirdə, ingilis dilində olan mətnə üstünlük verilir.

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından**

**Sahil Babayev**
**Nazir**

**Səudiyyə Ərəbistanı Krallığının İnsan Resursları və Sosial İnkişaf Nazirliyi adından**

**Əhməd Əl Raci**
**Nazir**